# Stomatologiya Fakültəsinin Məlumat  Kitabçası

## Mündəricat


1. **Dekanın ön sözləri**

2. **Giriş**
   – Stomatologiya Fakültəsinə xoş gəlmisiniz
   – Proqramların missiyası, vizyonu və məqsədləri
3. **Qəbul Şərtləri**
   – Akademik kriteriyalar
   – Müraciət prosesi
   – Qəbul müsahibələri və imtahanlar
4. **Kurikulumun Ümumi Baxışı**
   – Əsas kurslar
   – Klinik kurslar
   – Seçmə ixtisas imkanları
5. **Klinik və Praktiki Təcrübə**
   – Xəstəxanalarda yerləşdirmə və internlik
   – Tibbi və sənaye üzrə internliklər
   – Tədqiqat imkanları
6. **Fakültə və İşçi Heyəti**
   – Fakültə üzvlərinin profilləri
   – Akademik dəstək xidmətləri
7. **İxtisaslaşmalar**
   – Rezidentura proqramları və magistratura dərəcələri
8. **Davamlı Tibb Təhsili**
   – Qısa kurslar
9. **Karyera Bələdçisi**
   – İşə yerləşmə dəstəyi
   – Məzunların uğur hekayələri
10. **Tez-tez Verilən Suallar (TVS)**
11. **Tələbə Həyatı**
   – Tələbə təşkilatları
   – Tibbi konfranslar
   – Sağlamlıq və rifah resursları


---

# 1. Dekanın ön sözü

### Əziz tələbələr!

Stomatologiya fakültəsinə xoş gəlmisiniz! Sizlərə, ilk öncə Azərbaycan Tibb Universitetininin Stomatologiya fakültəsini seçdiyiniz üçün təşəkkür edir, eyni zamanda tələbə  adı qazanmağınız münasibətilə ilə sizi universitet rəhbərliyi adından, başda hörmətli rektorumuz professor Gəray Gəraybəyli olmaqla səmimi qəlbdən təbrik edirik. Nəzərinizə çatdırmaq istəyirəm ki, innovativ tədris metodlarından istifadə edərək sizləri tibbin yeni naliyyətlərindən xəbərdar olan, müasir tibbi cihazlarla işləməyi  bacaran, savadlı, yüksək ixtisaslı həkim-stomatoloqlar  kimi yetişdirmək üçün Stomatologiya

fakültəsinin rəhbərliyi və professor-müəllim heyəti var qüvvəsi ilə çalışır. Bu şərəfli və nəcib peşəyə yiyələnmək yolunda hər birinizə uğurlar arzu edirik!

---

# 2. Giriş

Stomatologiya Fakültəsinə xoş gəlmisiniz!
**Missiyamız:** Tənqidi düşüncəyə malik, xəstəliklərin diaqnozu və müalicəsində bacarıqlı, profilaktika və ictimai səhiyyədə fəal, ədalətli, peşəkar, inkişafa yönəlik diş həkimləri yetişdirməkdir.
**Baxışımız:** Milli tibb təhsilində, tədqiqatda və səhiyyə çatdırılmasında lider olmaq; qlobal akademik əməkdaşlıq qurmaq; bərabər təhsil və tədqiqat imkanları yaratmaqdır.

---

# 3. Qəbul Şərtləri

## Akademik Kriteriyalar və Proses

**Azərbaycan vətəndaşlarının qəbul qaydaları:**
Ali təhsil müəssisələrinə yalnız tam orta, texniki-peşə, orta ixtisas və ya ali təhsili təsdiq edən müvafiq dövlət attestatına sahib şəxslər qəbul edilir. Bacalavr pilləsində təhsil ya dövlət sifarişi ilə, ya da ödənişli əsaslarla təklif olunur. Dövlət sifarişli təhsil yalnız bir dəfə pulsuz təmin edilir. Qəbul **Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi** tərəfindən mərkəzləşdirilmiş iki mərhələli imtahan nəticələrinə əsasən aparılır.




# Əcnəbi (Azərbaycan vətəndaşı olmayan) Tələbələrin Qəbul Prosedurları

Azərbaycan Tibb Universitetinin hazırlıq kursu və I kursuna əcnəbi tələbələrin (Azərbaycan vətəndaşı olmayan və ya vətəndaşlığı olmayan şəxslər) qəbul olunması **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 125-saylı qərarına** əsasən aparılır. Təhsil yalnız ödənişli əsaslarla təmin edilir.

---

## 1. Müraciətin Qəbulu

Əcnəbi tələbələr mütləq olaraq **portal.edu.az** (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin) platformasında qeydiyyatdan keçməlidirlər. Qeydiyyat zamanı aşağıdakı sənədlər yüklənməlidir:

- Beynəlxalq pasport (şəkil səhifəsi), müraciət tarixindən etibarən ən azı 1 il etibarlı olmalıdır;
- Orta məktəb və ya lisey diplomu. Təhsil müəssisəsinin fəaliyyət göstərdiyi ölkənin müvafiq təhsil orqanı (Təhsil Nazirliyi) tərəfindən təsdiqlənməli və rəsmi qaydada Azərbaycan dilinə tərcümə edilməlidir. Yerli səviyyədə Azərbaycan dilinə tərcümə mümkün deyilsə, ingilis və ya rus dilində rəsmi tərcümə təqdim edilə bilər .

---

## 2. Sənədlərin Təqdim Edilməsi

Müraciət mərhələsində aşağıdakı sənədlərin həm orijinalları, həm də surətləri tələb olunur:

- Diploma aid orijinal sənəd;
- Apostilli diplom;
- Diplomun notariat qaydasında tərcüməsi (Türkiyə vətəndaşları istisna olmaqla);
- akademik transkript (qiymət dəftəri);
- Son altı ay ərzində çəkilmiş altı ədəd fotoşəkil;
- Pasportun altı surəti;
- Dil biliklərini sübut edən sertifikatlar (IELTS və ya TOEFL), mövcud olduqda;
- Azərbaycan vətəndaşlığı statusunu təsdiq edən sənəd.

Bu tələblər ümumi əcnəbi tələbə qəbul qaydalarına uyğundur .

---

## 3. Seçim Prosesi

Universitənin qəbul komitəsi müsabiqəni **online şəkildə** həyata keçirir. Uğurlu olan namizədlər "tələbə" və ya "dinləyici" statusu qazanır və müvafiq fakültəyə yönləndirilir. Rus və ya ingilis dili rəsmi dildirsə, müsabiqədən keçdikləri təqdirdə birbaşa I kursa qəbul edilə bilirlər.

Hazırlıq kursuna qəbul olunan tələbələr altı ay müddətində universitetin müvafiq kafedralarında Azərbaycan (eyni zamanda ingilis və rus) dili, fizika, kimya və biologiya dərslərində iştirak edir. Bu dövrün sonunda virtual imtahan mərkəzində test mərhələsini uğurla keçən tələbələr seçdikləri ixtisas üzrə I kursda qəbul olunurlar .

---

### 4. Türkiyə, İran və İraq Vətəndaşları üçün Xüsusi Tələblər

Aşağıda göstərilən ölkələrin vətəndaşları üçün minimal diploma bal tələbləri tətbiq olunur:

| Ölkə | Tələb |
|---|---|
| **Türkiyə** | Orta məktəb diplomunda ən azı 65 %, yaxud Qlobal reytinqdə ilk 1 000-lükdə olan türk ali təhsil müəssisəsinə qəbul olduqda minimum TYT balı 80; əks halda YKS-də təsdiqlənmiş “başarı puanı” sertifikatı tələb olunur. |
| **İran** | Eksperimental Elmlər və ya Fizika-Riyaziyyat yönümlü dābērīstān diplomunda ən azı 14 bal. |
| **İraq** | Baccalaureate və ya Orta Məktəb Sertifikatında ən azı 70 %. |

Bu tələblər əcnəbi tələbə namizədlərin qəbuluna dair cari qaydalara uyğun olaraq hazırlanıb




# 4. Tədris Planına Baxış

## Kampusda və Elastik Tibb Təhsil Proqramları

Fakültə əsas (baza) tibb təhsil proqramını full-time (əyani) rejimdə, magistratura proqramlarını full-time, fəlsəfə doktoru (PhD) proqramlarını isə həm full-time, həm də part-time rejimində təklif edir.

---

### Təhsil Proqramlarının Məqsədləri:

- Məzunların bacarıqlarını, xüsusi ixtisas sahəsinin çərçivəsini, fənn metodologiyasını, qiymətləndirmə üsullarını, öyrənmə nəticələrini, infrastruktur və personal tələblərini müəyyən etmək; tələbələrin praktiki təlim, məşğulluq və davamlı təhsil imkanlarını göstərmək.
- Tələbələrə və işəgötürənlərə məzunların əldə etdiyi bilik, bacarıq və öyrənmə nəticələri barədə məlumat vermək.

---

## Əsas Tədris Planına Ümumi Baxış

**İXTİSASIN TƏDRİS PLANINDA (STANDARTDA) NƏZƏRDƏ TUTULAN ÜMUMİ FƏNLƏR BLOKU (məcburi) – 30 kredit**

1. Azərbaycan tarixi
2. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya
3. Xarici dildə işgüzar və akademik kommunikasiya
4. Seçmə fənlər:

4.1. Azərbaycan Respublikası Konstitutsiyası və hüququn əsasları, Multikulturalizmə giriş,Fəlsəfə, Bioetika
4.2. İnformasiya texnologiyaları, İnformasiyanın idarəedilməsi

**İXTİSASIN TƏDRİS PLANINDA (STANDARTDA) NƏZƏRDƏ TUTULAN İXTİSAS FƏNLƏR BLOKU (məcburi) – 170 kredit**

1. İnsan anatomiyası və tibbi terminologiya
2. Sitologiya, embriologiya və histologiya
3. Tibbi biologiya və genetika
4. Normal fiziologiya
5. Tibbi biokimya
6. Tibbi mikrobiologiya və ağız boşluğunun mikrobiologiyası
7. Farmakologiya
8. Patologiya
9. Dişin müalicəsinin əsasları
10. Dişin sərt toxumalarının xəstəlikləri
11. Restorativ diş müalicəsi
12. Endodontiya
13. Dişlərin morfologiyası və oyma texnikası
14. Ortopedik stomatologiyanın əsasları
15. Diş tacının protezləri
16. Diş sırasının çıxmayan protezləri
17. Hissəvi çıxan protezlər

18. Tam çıxan protezlər
19. Ağız və üz-çənə cərrahiyyəsinin əsasları
20. Dişlərin ekstraksiyası
21. Yumşaq toxumaların iltihabi xəstəlikləri
22. Periodontoloji cərrahiyyə və implantologiya
23. Diş xəstəliklərinin profilaktikası
24. Uşaq stomatologiyasının əsasları
25. Uşaq stomatoloji xəstəliklərin terapiyası
26. Uşaq stomatoloji xəstəliklərin cərrahiyyəsi
27. Ortodontiya
28. Mülki Müdafiə

**İXTİSASLAŞMAYA AİD MƏCBURİ FƏNLƏR BLOKU – 50 kredit**

1. Oral radiologiya
2. Üzvi kimya
3. Patoloji fiziologiya
4. İlkin və təcili yardım
5. Daxili xəstəliklər (hematologiya, kardiologiya, allerqologiya, pulmonologiya, endokrinologiya)
6. Ümumi cərrahiyyə
7. Dəri-zöhrəvi xəstəlikləri
8. Nevrologiya
9. Psixiatriya
10. Qulaq, burun, boğaz xəstəlikləri
11. Məhkəmə təbabəti
12. İctimai sağlamlıq
13. Biofizika
14. Fizioterapiya və tibbi reabilitasiya
15. Yoluxucu xəstəliklər
16. Onkologiya
17. Uşaq xəstəlikləri
18. Biostatistika və epidemiologiya

**ALİ TƏHSİL MÜƏSSİSƏSİNİN MÜƏYYƏN ETDİYİ SEÇMƏ FƏNLƏR BLOKU (seçməli) – 20 kredit**

1. Ağız boşluğunun selikli qişasının xəstəlikləri
2. Parodont xəstəlikləri
3. İmplantüstü protezlər
4. Üz-çənə ortopediyası
5. Gicgah-çənə oynağının patologiyaları
6. Rekontruktiv əməliyyatlar və travmalar
7. Uşaqlarda ağız boşluğunun selikli qişasının xəstəlikləri
8. Uşaqlarda parodont xəstəlikləri

***TƏCRÜBƏ – 30 kredit***

1. Ortopedik stomatologiyadan klinik təcrübə
2. Dişin restovrasiyası və endodontiyadan klinik təcrübə
3. Ağız və üz-çənə cərrahiyyəsindən klinik təcrübə
4. Uşaq stomatologiyasından klinik təcrübə

# 5. Klinik və Praktiki Təcrübə

## Tibbi təcrübə

- **Yerli Tərəfdaş Müəssisələr:**
  Tələbələr Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikasında və fakültənin əməkdaşlıq etdiyi bir sıra özəl klinikalarda təcrübə keçə bilər.
- **Beynəlxalq Tərəfdaş Müəssisələr:**
  Xaricdə praktika imkanları da mövcuddur (ətraflı məlumat üçün Beynəlxalq Əlaqələr Ofisi: international.amu.edu.az).

---

## Tədqiqat İmkanları

Fakültə daxilində elmi-tədqiqat fəaliyyətləri kafedralar və laboratoriyalar vasitəsilə təşkil olunur. Fakültə tədqiqat layihələrində, dövlət, beynəlxalq maliyyələşmə və qrant proqramlarında iştirak edir.

---

# 6. Fakültə və İşçi Heyəti

## Fakültə Strukturunun Tərkibi

Fakültə onun tərkibində olan bütün kafedraları, tədris laboratoriyalarını, fənn kabinetlərini, tədris bazalarını və s. özündə birləşdirir.

Fakültənin təşkilati strukturu universitetin Elmi Şurasında qəbul edilir, rektorun əmri ilə təsdiq edilir və zərurət yarandıqda yenidən baxılır, dəyişiklik, əlavə, yaxud yeni redaksiyada qəbul edilərək "Fakültə haqqında əsasnamə"yə 1 №-li Əlavə kimi əlavə olunur. Fakültənin tərkibinə Fakültə Elmi Şurası, dekanlıq, kafedralar daxildir.Fakültənin əsas struktur bölməsi bütün tədris, metodik, tərbiyə və elmi işini özündə birləşdirən kafedradır. Fakültənin tərkibində 7 kafedra fəaliyyət göstərir:

- Fakültə Elmi Şurası
- Dekanlıq
- Kafedralar

**Kafedralar və Rəhbərləri:**

1. Ortopedik stomatologiya kafedrası- kafedra müdiri: t.e.d. prof. Pənahov N.A.
2. Ağız və üz-çənə cərrahiyyəsi kafedrası- kafedra müdiri: prof. Rəhimov Ç.R.
3. Uşaq stomatologiyası kafedrası- kafedra müdiri: ə.e.x. prof. Əliyeva R.Q.
4. Terapevtik stomatologiya kafedrası- kafedra müdiri: dos. Həsənov V.M.
5. Qulaq, burun, boğaz xəstəlikləri kafedrası- kafedra müdiri: prof. Pənahian V.M.
6. Ortodontiya kafedrası- kafedra müdiri: dos. Şadlinskaya R.V.
7. Xarici dillər kafedrası- kafedra müdiri: prof. Məmmədova Z.Ş.

Kafedralar, laboratoriyalar və digər struktur bölmələri onların əsasnamələrinə müvafiq idarə olunur.

Dekanlıq fakültənin struktur bölməsidir. Dekanlığın tərkibi və ştat sayı dekanın təqdimatına əsasən müvafiq struktur bölmələri ilə razılaşdırılaraq rektor tərəfindən təsdiq edilmiş ştat cədvəli ilə müəyyən edilir.

---

## -Dekanlıq Heyəti, Akademik dəstək



- **1) Dekan:** Dos. E.R. Əliyeva (Tibb üzrə fəlsəfə doktoru)
- **2) Dekan müavini:** Baş müəllim A.R. Həşimova (Biologiya üzrə fəlsəfə doktoru)
- **3) Akademik Məsləhətçi:** Assist. G.R. Əliyeva (Tibb üzrə fəlsəfə doktoru)
- **4) Akademik Məsləhətçi:** Assist. H.İ. İsmayılova
- **5) Akademik Məsləhətçi**: G.M. Əliyeva
- **6) Kompüter Operatoru:** N.A. Şahbazova
- **7) Fakültə Elmi Katibi:** Dos. M.S. Əliyeva (Tibb üzrə fəlsəfə doktoru)
- **8) Fakültə Həmkarlar İttifaqı Komitəsinin sədri:** Assist. T.G. Mahmudov




Fakültədə 192 nəfər professor-müəllim heyəti çalışır. Fakültə əməkdaşlarından 18 nəfəri tibb elmləri doktoru, 3 nəfəri filologiya elmləri doktoru (Xarici dillər kafedrası), 83 nəfəri tibb elmləri üzrə fəlsəfə doktoru, 11 nəfəri filologiya üzrə fəlsəfə doktoru, 3 nəfəri pedaqogika üzrə fəlsəfə doktoru, o cümlədən 17 nəfəri professor, 43 nəfəri dosent, qalanları isə baş müəllim və assistentdir. Ümumilikdə, professor-müəllim heyətinin 118 nəfəri elmi dərəcəlidir.

---

**Qeyd:** Fakültə üzvləri, şöbə və struktur vahidlər barədə daha ətraflı məlumat üçün Stomatologiya Fakültəsinin rəsmi veb səhifəsindəki “Kafedralar” bölməsinə müraciət edə bilərsiniz.

-**PMH üzvlərinin profilləri** – Stomatologiya fakültəsinin nəzdində olan kafedralar və kafedra əməkdaşları haqqında ətraflı məlumatı https://amu.edu.az/page/221/kafedralar bu link vasitəsilə əldə edə bilərsiniz.

Tələbələrə Dəstək Xidmətləri üzrə fakültə tələbələrinə məsləhət, akademik rəhbərlik, mentorluq proqramları, şəxsi və peşəkar inkişaf üçün resurslar daxil olmaqla bir sıra dəstək xidmətləri təqdim edir.

Mentorluq fəaliyyətini həyata keçirmək üçün fakültə üzvləri tələbələrə rəhbərlik və akademik dəstək göstərir, onların şəxsi və peşəkar inkişafını dəstəkləmək üçün təşviq edir.

Dekanlıq aşağıdakı funksiyaları həyata keçirir:

- fakültədə tədris, tədris-metodoloji və tərbiyə işlərinin təşkili;

- fakültənin ixtisasları və istiqamətləri üzrə ixtisas təhsil proqramlarının yerinə yetirilməsinin təşkili ;

- tələbə kontingentinin və onların müvəffəqiyyət göstəricilərinin qeydiyyatının aparılması ;

- tədris, tədris-metodik, və elmi-metodik, təşkilati-metodik fəaliyyətinin planlaşdırılması və hesabatlığının təşkili:

- fakültənin əməkdaşlarının peşəkarlıq və mənəvi-etik səviyyələrinin yüksəldilməsi üzrə;

- fakültənin sərəncamında olan tədris, xidməti və digər otaqların, həmçinin maddi nemətlərin və başqa əmlakın saxlama vəziyyətinə nəzarət üzrə;

- məktəblilərlə peşə yönlü işinin təşkili və fakültənin məzunları ilə əlaqələrin qurulması üzrə;

- universitetin digər struktur bölmələrinin iş planları ilə fakültənin işinin koordinasiyası;

- fakültənin fəaliyyətinin kargüzarlıq və sənədləşməsini təmin edilməsi üzrə;

- fakültənin əməkdaşları və tələbələrin həyat təhlükəsizliyini təmin edən tədbirlərin görülməsi üzrə.

**Fakültənin dekanı aşağıdakı funksiyaları yerinə yetirir:**

- fakültəyə rəhbərlik edir;

- fakültədə tədris prosesinə, tərbiyə işinə və elmi-tədqiqatların yerinə yetirməsinə bilavasitə rəhbərlik edir;

- təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartları tələblərinə uyğun olaraq həyata keçməsini təmin edir;

- tələbələrin imtahan və yoxlamalarının keçirilməsini nəzarəti təşkil edir, akademik borcları ləğv etmək üçün onlara göndəriş verir və bütün imtahan prosesinin normal, mövcud tələblərə uyğun keçirilməsinə birbaşa cavabdehlik daşıyır;

- tələbələri semestrdən-semestrə və kursda-kursa keçirmək, eləcə də tələbələr sırasından xaric etmək üçün rektora təqdimatlar verir;

- qrup nümayəndələrinin işinə rəhbərlik edir;

- təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartları tələblərinə uyğun olaraq həyata keçməsini təmin edir;

- tələbələrin elmi, pedaqoji və istehsalat praktikalarının həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;

-fakültə üzrə dərs cədvəllərinin tərtibinə rəhbərlik edir, onun optimal variantlarının təmin olunması üçün məsuliyyət daşıyır və həyata keçməsinə nəzarət edir;

- tələbələrin müstəqil işlərinə nəzarəti təşkil edir və onların elmi fəaliyyətləri üçün şərait yaranmasını təmin edir;

- tələbələrin buraxılış-yekun dövlət imtahanlarında, buraxılış işlərinin və magistr dissertasiyalarının müdafiəsinə buraxılmasına icazə verir;

- fakültədə çalışan professor-müəllim heyətinin ixtisas artırması və yenidən hazırlanması işinin həyata keçirilməsinə rəhbərlik edir;

- fakültədə təhsil alan doktorant və dissertantların təhsilinin lazımi səviyyədə təşkil olunmasını təmin edir, onların attestasiyalarını

keçirir;

- fakültənin profilinə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodiki

göstərişlərin hazırlanmasına təşəbbüs göstərir və bu işə ümumi rəhbərlik edir;

- kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsini təşkil edir və onlara rəhbərlik edir;

- ümumfakültə elmi-metodiki və elmi seminarlarının təşkil olunmasını təmin edir;

- fakültədə hazırlanan ixtisaslar üzrə peşə yönümü işinin aparılmasını təşkil edir və onun lazımi səviyyədə aparılmasına məsuliyyət

daşıyır;

- ali təhsilin hər iki pilləsi, eləcə də doktorantura və dissertantura üzrə fakültədə hazırlanması mümkün və zəruri olan ixtisasları,

ixtisaslaşmaları müəyyənləşdirir, onlar üzrə illik və perspektiv qəbul planları üzrə universitetin rektoruna təkliflər təqdim edir;

- fakültə elmi şurasına rəhbərlik edir;

- fakültənin həyatı ilə bağlı olan bütün tədbirlərdə, komissiyalarda, yığıncaq və şuralarda fakültəni təmsil edir;

- dekan müavinlərini təyin etmək üçün təqdimat verir;

- fakültədə olan bütün tədris-köməkçi heyətin işinə nəzarət edir, onların işə qəbulu və işdən azad olunması, eləcə də

rəğbətləndirilməsi və cəzalandırılması üçün rektora təqdimat verir;

- ayrı-ayrı kafedraların tədris yükünün düzgünlüyünü yoxlayıb, onlara rəy verir;

- təhsilalanların məişəti və təhsili ilə bağlı ərizə və müraciətlərlə bağlı iş görür.

- tələbələrə təqaüd verilməsi üçün təqaüd komissiyasının işində iştirak edir, fakültənin işçi qrupuna rəhbərlik edir;

- dekanlığın əməkdaşlarının iş cədvəlini təsdiq edir.

- fakültənin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün iş görür.

- fakültənin məzunları və onların işlədikləri idarə və müəssisələri ilə əlaqələri koordinasiya edir.

- kafedra müdirləri və fakültənin əməkdaşlarına fakültənin fəaliyyəti ilə bağlı əmr, sərəncam və digər sənədlərlə vaxtında məlumatlandırır və fakültə əməkdaşları tərəfindən icrasına nəzarət edir.

- Fakültənin tədris, elmi və digər binalarında əməyin təhlükəsizliyini təmin etmək, fakültə işçilərinin istehsalat xəsarətlərinin və peşə xəstəliklərinin tamamilə aradan qaldırılması üçün fakültədə əməyin mühafizəsi, sanitariya və yanğın təhlükəsizliyinə nəzarət edir və bütün zəruri tədbirləri həyata keçirir.

Dekan fakültə daxilində tələbələrin bir ixtisasdan digərinə köçürülməsi ilə bağlı prosesdə qərarın qəbul olunmasında( səsvermə yolu ilə) iştirak edir.

**Dekan müavini**

Fakültə yaradılarkən, ştatda fakültə dekanının müavini vəzifəsi nəzərdə tutulur. Fakültədə təhsil alan tələbələrin sayı 800 nəfərə çatdıqda ikinci və sonrakı hər 500 nəfər tələbə üçün əlavə bir dekan müavini ştatı əlavə olunur.

Dekan müavini fakültənin profilinə uyğun baza təhsilli, ən azı 3 il elmi-pedaqoji təcrübəsi olan, mütəxəssislər arasından fakültə dekanının təqdimatı əsasında rektor tərəfindən təyin və azad edilir və onunla qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlanır .Dekan müavinin vəzifə borcları rektor tərəfindən təsdiq edilmiş vəzifə təlimatı ilə müəyyən edilir

Dekan müavininin funksiyaları kurasiyasında olan təhsil kursları və ya kurasiyasında olan məsələlər üzrə müəyyən edilir.

Dekan müavini birbaşa fakültənin dekanına tabedir.

Dekan müavini olmadığı müddətdə (xəstəlik, məzuniyyət, ezamiyyət və s.) onun funksiyalarını dekanın yazılı sərəncamına əsasən digər dekan müavini tərəfindən yerinə yetirilir.

Fakültədə çalışan akademik məsləhətçilər tələbələrin akademik maraqlarını qoruyur və müdafiə edir. Tədris prosesinin təşkili ilə bağlı zəruri məlumatları və sənədləri tələbələrə təqdim edir. Tələbələrin fərdi tədris və iş planlarının tərtibi üçün onlara qrup halında və ya fərdi məsləhətlər verir. İl ərzində müntəzəm olaraq akademik məsləhətləşmələr aparır. Tələbələrin fərdi tədris planlarının qəbulunu təşkil edir və ixtisaslar (proqramlar) üzrə iş planlarının tərtib edilməsində iştirak edir. Tələbələrə fərdi tədris planında dəyişiklik aparmağa yardım göstərir.

Fakültə-Tələbə Münasibətləri:

Hörmətli Mühit təmin etmək üçün fakültə professor-müəllim heyəti ilə tələbələr arasında qarşılıqlı hörmət, peşəkarlıq və effektiv ünsiyyəti təşviq edən hörmətli və inklüziv mühit yaradır.

Şikayətlərin həlli üçün fakültə tələbələrin şikayətlərini həll etmək məqsədi ilə ədalətli və şəffaf mexanizm yaradır, tələbələrin narahatlıqlarını ifadə etmələri və həllini axtarmaq üçün platformanı təmin edir.

Maraqlı Tərəflərin İştirakı təmin məqsədi ilə fakültə təhsil proqramlarını sosial ehtiyaclara uyğunlaşdırmaq və tibb təhsilinin aktuallığını artırmaq üçün tələbələr, müəllimlər, məzunlar, səhiyyə işçiləri və icma daxil olmaqla maraqlı tərəflərlə fəal şəkildə əlaqə saxlayır və rəylər toplayır.

## 7. İxtisaslaşma Proqramları

### -Rezidentura və Magistratura Proqramları

Stomatologiya fakültəsində 5 illik baza ali tibb təhsilini bitirdikdən sonra "Həkim" ali peşə dərəcəsinə yiyələnirlər. Bundan sonra isə dar sahədə ixtisasa yiyələnmək istəyənlər müvafiq ixtisasa uyğun olaraq rezidentura səviyyəsi üzrə təhsil alma hüququna malikdirlər.

Stomatologiya üzrə rezidentura səviyyəsinə uyğun ixtisaslar bu şəkildə müvafiq olaraq müəyyənləşdirilmişdir:

| **Əsas(baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)** | **Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar** | **Rezidenturaya qəbul üçün imtahan fənləri** | |
|---|---|---|---|
| | | **Baza fənləri** | **İxtisas fənləri** |
| **1** | **2** | **3** | **4** |
| ***Stomatologiya*** | 060934-Üz-çənə cərrahiyyəsi<br>060935-Sosial gigiyena və səhiyyənin təşkili<br>060943-Endodontiya<br>060944-Parodontologiya<br>060945-Restorativ stomatologiya<br>060946-Ortopedik stomatologiya<br>060947-Uşaq stomatologiyası<br>060948-Ortodontiya | İnsan anatomiyası<br>Histologiya<br>İnsan fiziologiyası<br>Patologiya(patoloji anatomiya, patoloji fiziologiya)<br>Mikrobiologiya<br>Farmakologiya<br>Biokimya | Terapevtik stomatologiya<br>Ortopedik stomatologiya<br>Üz-çənə cərrahiyyəsi<br>Uşaq stomatologiyası |

Rezidenturaya yalnız ali baza tibb təhsili olanlar qəbul oluna bilərlər. Azərbaycan vətəndaşları üçün dövlət planına müvafiq olaraq təhsil ödənişsiz və ödənişli əsaslarla, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün isə müvafiq qanunvericilik qaydalarında nəzərdə tutulubsa ödənişsiz, digər halda yalnız ödənişli əsasla həyata keçirilir. Qəbul rezidentura səviyyəsi üzrə ixtisas seçimi cədvəlinə müvafiq olaraq, yəni bitirdiyi fakultəyə müvafiq ixtisaslar üzrə həyata keçirilir.

Rezidentura təhsilinə rəhbərlik universitetin müvafiq şöbəsi tərəfindən həyata keçirilir,

rezidentlərin fərdi iş planı təsdiq olunur, illik hesabatları dillənilərək və illik hesabat məqbul sayıldıqda rezident attestasiyadan keçmiş hesab olunur.

## Magistratura proqramları haqqında ümumi məlumat

Stomatologiya fakültəsini bitirən tələbələr üçün magistratura təhsili aşağıdakı proqram və ixtisas üzrə aparılır və iki il davam edir, proqrama dissertasiya işi daxildir.

**Menecment** ixtisası üzrə Təhsil Proqramı - "Menecment (səhiyyə sahəsi üzrə)"

Magistratura səviyyəsinin **060407 – Menecment** ixtisası üzrə Təhsii Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmu-nu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifa-tı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**060407 – Menecment** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

| **İxtisasın şifri və adı** | **Verilən elmi-ixtisas dərəcəsi** | **Əyani forma üzrə təhsil müddəti** | **Kreditlə rin sayı** |
|---|---|---|---|
| **060407 - Menecment**<br>**Ixtisaslaşmalar:**<br>- *Menecment (səhiyyə sahəsi üzrə)* | **Magistr** | **2 il** | **120** |

**-Fəlsəfə və Elmlər Doktoru imkanları** – Doktoranturada yüksəkixtisaslı elmi kadrların məqsədli hazırlığı ali təhsil müəssisələri, elmi müəssisə, təşkilatların və digər təşkilatların təqdimatı ilə onların tabe olduqları müvafiq qurumların sifarişləri əsasında həyata keçirilir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar. Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

1. ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına)
2. kadrların şəxsi-qeydiyyat vərəqi
3. tərcümeyi hal
4. 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə)
5. İş yerindən xasiyyətnamə
6. əmək kitabçasından çıxarış
7. çap olunmuş elmi işlərin siyahısı
8. Fəlsəfə doktoru və ya Elmlər namizədi elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti.

“Fəlsəfə doktoru” və “Elmlər doktoru” elmi dərəcələri üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və vəzifələri doktoranturada yüksəkixtisaslı elmi kadrların məqsədli hazırlığına da şamil edilir. Doktoranturada fərdi iş planını yerinə yetirən və elmi tədqiqat işini bitirən şəxslər “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq üçün dissertasiya işinin müdafiəsinə buraxılırlar. Əyani təhsil alan doktorantlar elmi rəhbərin razılığı ilə təhsil aldıqları ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatda 0,5 ştat vahidi ilə müvafiq elmi və ya elmi-pedaqoji işlərə cəlb oluna bilərlər.

Stomatologiya üzrə təhsil almış şəxslər 3226.01-Stomatologiya ixtisası üzrə Doktoranturaya qəbul oluna bilər.

**8.** Davamlı Tibb Təhsili****

**-Təkmilləşmə Kursları**

Pedaqoji peşakarlığın inkişafı təliminin (PPİT) məqsədi tibb tədrisi fəaliyyətində iştirak edən müəllimlərin tədris bacarıqlarını təkmilləşdirməkdir. Bu təlim tibb və sağlamlıq təhsili üzrə professor-müəllim heyətinin və ya müəssisədə çalışan klinik təhsilverənlərin inkişafının təmin edərək tədris proqramlarını və proseslərini gücləndirməklə tibb təhsilinin keyfiyyətini artırmaq məqsədi daşıyır. Bu təlim proqramı tibb və sağlamlıq elmləri sahəsində tədris yanaşmalarını (tələbə mərkəzli, səriştə əsaslı, cəmiyyətə yönəlmiş, xəstə təhlükəsizliyinə yönəlmiş və s.) və onların məzmununu yeniləmək məqsədi daşıyır.

Təlim nəticəsində müəllimlər dünyada tibb və sağlamlıq təhsilinin əhatə dairəsinin izahı, öyrənmə nəzəriyyələrindən istifadə etməklə effektiv tədrisin metodları, tibb təhsilverənin səriştələr çərçivəsi, təhsil ehtiyaclarına uyğun öyrənmə hədəfləri, müəyyən edilmiş öyrənmə hədəfləri üçün uyğun olan tədris və qiymətləndirmə metodunun seçilməsi, böyük və kiçik qruplarda tədris üsulları və texnikalarından səmərəli istifadə edilməsi, böyük/kiçik qrup//klinikada tədrisi və bacarıq təlimlərini planlaşdırmaq və həyata keçirmək kimi mövzularda bilik və bacarıqlara malik olurlar.

Təlim ATU-nun Tibb və sağlamlıq elmləri təhsili kafedrasında həyata keçirilir. Kafedraların əməkdaşları bu təlimlərdə iştirak edərək bilik və bacarıqlarını artırırlar.

**9.**Karyerada İstiqamətləndirmə****

**- İşə Yerləşmə Yardım**

Azərbaycan Tibb Universitetinin rəsmi səhifəsində Məzunlarla daima əlaqədə olmaq üçün Tədris Departamenti – Məzunlarla iş şöbəsi bölməsində elektron ünvan və iş nömrəsi qeyd edilmişdir. Müxtəlif illərdə Məzun olan və bizə indi müraciət edən bütün məzunlara xaricdə diplomlarının taninması, təhsillərini davam etdirmək və ya əmək fəaliyyətinə başlamaları üçün köməklik edilmişdir. Tövsiyyə məktublarının hazırlanması digər tələb olunan sorğuların cavablandırılması istiqamətində mütamadi, gündəlik olaraq işlər görülür.

Məzunlarla iş şöbəsi olaraq, beynəlxalq miqyasda tanınmış şirkətlərlə (DATA FLOW GROUP, WES KANADA – ABŞ, ECE.ORG, FSMB STATE MEDİCAL BOARDS - verification, ENİC) Türkiyə, Almaniya, Qazaxıstan, Belorusiya, Rusiya dövlətlərinin Səhiyyə Nazirlikləri ilə əlaqələr yaradılmışdır və Məzunların müraciəti ilə bağlı olaraq qarşılıqlı fəaliyyət göstəririk.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyindən, ölkəmizdə fəaliyyət göstərən Dövlət və özəl xəstəxanalardan gələn gündəlik sorğular operativ şəkildə cavablandırılır.

Stomatologiya ixtisası üzrə Məzun olanların hal-hazırda əldə etdikləri nailiyyətlər qürurvericidir.

*Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura*

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

*Elmlər doktoru hazirliği üzrə doktorantura*

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı;
- "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərinin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyindən, ölkəmizdə fəaliyyət göstərən Dövlət və özəl xəstəxanalardan gələn gündəlik sorğular operativ şəkildə cavablandırılır.

Stomatologiya ixtisası üzrə Məzun olanların hal-hazırda əldə etdikləri nailiyyətlər qürurvericidir.

**-Məzunların Uğur Hekayələri**

ATU-nun stomatologiya fakültəsinin çox sayda uğurlu məzunları vardır. Sizlərə onlardan sadəcə bir neçəsi haqqında məlumat vermək istəyirik:

1. **Əməkdar elm xadimi, professor Rəna Əliyeva**

**Elmi fəaliyyəti**




1991-ci ildə R. Əliyeva Moskva şəhərində, SSRİ Səhiyyə Nazirliyinin Mərkəzi Elmi Tədqiqat Stomatologiya İnstitutunda "Üz-çənə nahiyəsinin fleqmonası olan xəstələrdə böyrəküstü, mədəaltı və qalxanabənzər vəzilərin funksional vəziyyəti" mövzusunda dissertasiyasını böyük uğurla müdafiə etmiş (elmi məsləhətçilər: SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, tibb elmləri doktoru, professor N. N. Bajanov və SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor İ. İ. Dedov) və tibb elmləri namizədi elmi dərəcəsini almışdır. Sonra, 1998-ci illərə qədər R. Əliyeva əmək fəaliyyətini Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirmə İnstitutunda davam etmişdir.

Bu tədqiqatların nəticəsi olaraq 2001-ci il tarixində Moskva şəhərində Rusiya Federasiyası Səhiyyə Nazirliyinin Mərkəzi Elmi Tədqiqat Stomatologiya İnstitutunda tibb elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Azərbaycan Respublikasının uşaq əhalisinə stomatoloji xidmətin optimal inkişaf modelinin işlənib hazırlanması" mövzusunda dissertasiya müdafiə etmişdir.

**Əmək fəaliyyəti**

1998-ci il aprel ayında R. Əliyeva Azərbaycan Tibb Universitetinin uşaq stomatologiyası kafedrasının müdiri vəzifəsinə seçilərək bu günə qədər həmin kafedraya rəhbərlik edir. R. Əliyeva Azərbaycan Tibb Universitetinin Elmi Şurası, Stomatologiya fakültəsinin Elmi Şurası, Dissertasiya Şurasının üzvüdür.

R. Əliyeva geniş diapozona malik olan bir elm adamı olaraq, 2005-ci ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının (Kanada, Monreal), 2007-ci ildə isə ABŞ-nin Beynəlxalq Stomatologiya Akademiyasının (Academy of International Dentistry in USA) üzvü seçilmişdir.

1997-ci ildən etibarən Azərbaycan Stomatoloqlar Assosiasiyasının (ASA) prezidenti, Cənubi Qafqaz və Azərbaycanda "Qafqazın Stomatoloji yenilikləri" ("Вестник

Стоматологии Кавказа") adlı ilk tibbi beynəlxalq jurnalının təsisçisi və baş redaktorudur.

R. Əliyeva Rusiyanın "Маэстро стоматологии", Özbəkistanın "Стоматология" jurnallarının redaksiya heyətinin üzvüdür.

Mükafatları

Uzun illər əmək fəaliyyəti və Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə R. Əliyeva "Əməkdar elm xadimi" və "Əməkdar həkim" adına layiq görülmüş, "Fədakar əməyə görə" medal və Səhiyyə Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir

## 2. Tibb elmləri doktoru, professor Zöhrab Qarayev




**Elmi fəaliyyəti.** 1969-cu ildə Azərbaycan dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna aspiranturaya stomatologiya kafedrasına qəbul olunub.

1974-cü ildə Krasnodar Dövlət Tibb İnstitutunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

1985-ci ilə qədər Ə. Əliyev adına ADHTİ-də aspirant olmuş, metodist və stomatologiya kafedrasında assistent işləmişdir.1980–1985-ci illərdə Ə. Əliyev adına ADHTİ-nin Həmkarlar İttifaqı Komitəsinin sədri fəzifəsində işləmişdir.1985-ci ildə müsabiqə yolu ilə ADTİ-nun ortepedik stomatologiya kafedrasında assistent, 1987-ci ildə dosent vəzifəsinə seçilmişdir, 2005-ci ildən həmin kafedranın professorudur. 2000-ci ildə Moskva şəhərində Mərkəzi Elmi-Tədqiqat Stomatologiya İnstitutunda doktorluq dissertasiyasını müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsi almışdır.

**Elmi uğurları**

Zöhrab Qarayev 160-dan çox elmi işin, o cümlədən 1 monoqrafiya, 6 dərslik və dərs vəsaiti, 8 metodik vəsait və 5 səmərələşdirici təklifin müəllifidir. Elmi işləri Azərbaycanda və xaricdə çap olunub.

Müxtəlif xarici ölkələrdə, o cümlədən ABŞ, Almaniya, Avstriya, İsveç, Portuqaliya, Rusiya, Türkiyə, Ukrayina, Sinqapur, İran, Rusiya, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Hindistan, Tayland və digər ölkələrdə keçirilən konqress və sinpoziumlarda iştirak və çıxışlar edib.

3. **Tibb elmləri doktoru, professor Nazim Pənahov**

**Elmi fəaliyyəti**

1993–1995-ci illərdə Azərbaycan Tibb Universitetinin ortepedik stomatologiya kafedrasında klinik ordinator, 1996–1999-cu illərdə həmin kafedrada aspirant,




2000–2008-ci illərdə assistent olub, 2008–2016-cı illər ərzində dosent vəzifəsində çalışıb. 2017-ci ildən isə ortopedik stomatologiya kafedrasının professoru vəzifəsində çalışır, eyni zamanda həmin ildən Ortopedik stomatologiya kafedrasının müdiridir.

2003-cü ildə tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş, 2009-cu ildə dosent elmi adına layiq görülüb.

2014-cü ildə tibb elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş, 2019-cu ildə professor elmi adına layiq görülüb.

N. Pənahov 100-dən çox elmi əsərin, o cümlədən dərslik, dərs vəsaiti, tədris-metodik tövsiyələrin, səmərələşdirici təkliflərin müəllifidir.

2016-cı il 7 noyabr tarixindən etribarən ATU-nun elmi katibidir.

2019-cu il 11 mart tarixindən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş stomatoloqudur.

2025-ci il 17 oktyabr tarixində Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru təyin edilmişdir.

4. **Tibb elmləri doktoru, professor Çingiz Rəhimov**

**İctimai fəaliyyəti**

1992–1993 Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdir müavini (səhiyyə və sosial problemləri əhatə edən sahə üzrə kurator). 1993–1998 Azərbaycan Respublikası Nazirlər Kabinetinin səhiyyə və sosial problemlər şöbəsinin müdiri. 1997–2000 BMT-nin narkotiklərlə mübarizə üzrə Azərbaycan Respublikasında yardım proqramının Milli Koordinatoru. 2011-bu günə qədər İxtisas üzrə Rezidentura Qəbul Proqramına və test bankına daxil olmuş testlər üzrə, həmçinin qapalı rejimdən sonra imtahanda istifadə olunmuş sual kitabçalalarında təqdim olunan testlərin ekspertizası üzrə məsul şəxs. 2017 — Azərbaycan üz-çənə cərrahları cəmiyyətin sədri.




**Peşə fəaliyyəti**

1979–1981 Naxçıvan Muxtar Respublikasında ağız cərrah kimi sərbəst peşə fəaliyyətinə başlayıb. 1981–1984 Moskva şəhərində Ümumittifaq Onkologiya Mərkəzinin baş və boyun şişləri şöbəsində məqsədli aspirantura. 1986–1992 Moskva şəhərində Moskva Tibb Akademiyasının üz-çənə cərrahiyyəsi kafedrasında doktorantura. 1992 — bu günə kimi Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru 1992–1993 Azərbaycan Respublikası Prezidentinin İcra Apparatının Humanitar siyasət şöbəsinin müdir müavini (səhiyyə və sosial problemləri əhatə edən sahə üzrə kurator). 1993–1998 Azərbaycan Respublikası Nazirlər Kabinetiinin Səhiyyə və sosial problemlər şöbəsinin müdiri. 1997–2000 BMT-nin Azərbaycan Respublikası üzrə Milli Əlaqələndiricisi. 2004–2015 Səhiyyə Nazirliyinin 1 saylı klinik Xəstəxanasının üz-çənə cərrahiyyə şöbəsinin müdiri. 2007, 2012, 2017, 2022-ci ildə seçilərək günümüzə qədər öz fəaliyyətini Azərbaycan Tibb Universitetinin Ağız və Üz-Çənə Cərrahiyyəsi Kafedrasının müdiri vəzifəsində davam etdirir.

*Azərbaycan səhiyyəsində ilk dəfə olaraq*

- Kraniofasial cərrahi əməliyyatlarını aparır.
- Üz-çənə cərrahiyyəsində əməliyyatönü virtual planlaşdırmanı, plastik moddellərin hazırlanmasını və naviqasion usulunu tədbiq edir.
- Çənənin incik sümüyündən götürülən damar ayaqcıqda sərbəst autotransplantatla bərpasını yerinə yetirir.
- Cərrahi əməliyyatdan sonraki çənə defektlərində dental implantlarla ortopedik reabilitasiya
- Ambulator şəraitdə ümumi ağrısızlaşdırma altında müxtəlif növ ağız və üz-çənə cərrahi əməliyyatlarını icra edir.
- Travmalar zamanı orbita rekonstruksiyalarında custom made titan lövhələrini tədbiq edir.
- Gicgah-çənə oynağının artrosentezini aparır
- Gicgah-çənə oynağının tam süni oynaq kompleksi ilə əvəz olunmasını aparır
- Az invaziv transkoyuktival yolla orbitanın rekonstruksiyasını aparır
- Kəllə-üz-çənə nahiyyəsində distraktorları tədbiq edir

- Konorar yanaşma ilə Almacıq-orbita kompleksinin deformasiyaların aradan qaldırırır
- Ziqoma implantasiyası əməliyyatını aparır.
- Ortoqnatik cərrahiyyədə 3D sefalometriya metodları tədbiq edir

**10. ** FAQs ****
**- Tez-tez verilən suallar**

**1. Fakültədə bakalavr təhsilində əcnəbi tələbələr üçün distant təhsil varmı?**

- Hal hazırda Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsi üzrə tədris üz-üzə aparılır.

**2. Universitet daxilində başqa fakültədə təhsil alan tələbənin ixtisasını dəyişdirərək Stomatologiya fakültəsinə və əksinə köçürülməsi mümkündürmü?**

- Azərbaycan Tibb Universitetində müəyyən ixtisasda təhsil alan alan tələbənin başqa fakültəyə köçürülməsi mümkün deyil.

**3. Əgər tələbə hər hansı bölmə üzrə bir və ya bir neçə il təhsil alıbsa, sonrakı təhsilini başqa bölmə üzrə davam edə bilərmi?**

- Həm yerli, həm də əcnəbi tələbələr 1-ci kursa hansı bölmə üzrə qəbul olunubsa, məzun olanadək həmin bölmədə təhsil almalıdır.

**4. Fakültədə mübadilə proqramları mövcuddurmu?**

- Azərbaycan Tibb Universiteti bütün fakültələr üzrə, o cümlədən Stomatologiya fakültəsi üzrə Beynəlxalq Kredit Hərəkətliliyi Proqramı çərçivəsində müxtəlif tələbə mübadiləsi proqramlarını həyata keçirir.

**5. Stomatologiya fakültəsinin tələbələri hansı bacarıqlara yiyələnir?**

- Stomatologiya fakültəsinin tələbələri təhsil aldığı kursdan asılı olaraq ümumi stomatoloji bacarıqlara o cümlədən profilaktik və restorativ işin görülməsi, dişin ekstraksiyası, kök kanal terapiyası, damaq xəstəliklərinin müalicəsi, diş sırasının düzləndirilməsi və başqa bacarıqlara yiyələnirlər.

**6. Fakültədə tələbə yataqxanası varmı və əcnəbi tələbələrin qalmağına icazə varmı?**

-Azərbaycan Tibb Universitetinin balansında 6 yataqxana fəaliyyət göstərir ki, bu yataqxanalarda bütün fakültələr üzrə həm yerli, həm əcnəbi tələbələr qala bilər.

**7.Universitetdə kitabxana və oxu zal mövcuddurmu?**

-Azərbaycan Tibb Universitetinin 5 saylı tədris binasında tələbələrin sərbəst şəkildə oxuyub mütaliə etmələri üçün kitabxana və oxu zalı fəaliyyət göstərir.

**8.Fakültə xarici ölkə Universitetləri ilə əməkdaşlıq edirmi?**

-Azərbaycan Tibb Universitetinin fəaliyyətinin prioritet istiqamətlərindən biri də beynəlxalq əlaqələrin genişləndirilməsidir. Hal-hazırda universitet dünyanın 90-a yaxın elm və təhsil qurumları ilə əməkdaşlıq edir.

**9.Stomatologiya fakültəsi üzrə baza ali tibb təhsilinin müddəti nə qədərdir?**

-Azərbaycan Tibb Universitetində Stmatologiya fakültəsi üzrə baza ali tibb təhsilində normativ təhsil müddəti 5 ildir.

**10. Stomatologiya fakültəsini bitirdikdən sonra hansı ixtisaslar üzrə təhsilimi davam etdirə bilərəm?**

-Tələbələr Stomatologiya fakültəsindən məzun olduqdan sonra Ağız və üz-çənə cərrahlığı, Endodontiya, Ortodontiya, Parodontologiya, Uşaq stomatologiyası, Restorativ stomatologiya, Ortopedik stomatologiya sahələri üzrə ixtisaslaşa bilər.

**11. Kredit borclarının 25% -ni hansı hallarda ödəmək olar?**

Tələbə kredit borcunun 25%-ni aşağıdakı hallarda ödəyə bilər:

1. Müvafiq semestrdə, normativ təhsil müddəti daxilində;
2. Müsabiqə imtahanı zamanı "F" (keçmədi) qiyməti aldıqda;
3. Əgər tələbə etibarlı əsas olmadan imtahan mərhələsində iştirak etməyibsə.

**25% ödənişin hesablanma üsulu:**
Bir kreditin dəyəri, fənn krediti * 117 AZN * vurulmaqla, sonra isə 4-ə bölməklə müəyyən olunur.
Məsələn, 5 kreditli fənn üçün:
5 × 117 = 585 AZN – bu miqdar 100%-i təşkil edir.
25%-ni tapmaq üçün: 585 ÷ 4 = 146,25 AZN.
Deməli, tələbə ödəməli olduğu 25% məbləği 146,25 AZN təşkil edir.

Bu məbləğ Dövlət sifarişi ilə təhsil alan Azərbaycan vətəndaşı olan tələbələr üçün doğrudur.Əcnəbi tələbələrdə təhsil haqqının miqdarından asılı olaraq bu məbləğ dəyişir.

**12. Tələbə Təhsil Krediti (TTK) almaq üçün hansı şərtlər olmalıdır?**

**a) Sosial TTK:**

Şagird aşağıdakı hallardan birinə uyğun olduqda sosial kredit almağa haqlıdır:

- Ailəvi hədəfli sosial yardım alan ailə üzvü olmaq;
- 31–60% əlilliyi olması (III qrup);
- Ailə başçısını itirməyə görə əmək pensiyası almaq;
- "Vətən Müharibəsi Veteranı" adına layiq görülmüş olmaq;
- Hər iki valideyn (və ya tək valideyn) üçün:
  • 61–100% əlillik (I və II qrup);
  • Qeyri-məşğul şəxs kimi qeydiyyatda olmaq;
  • Yaşlılıq pensiyası və ya sosial yardım almaq.

**b) Standart TTK:**

Əgər tələbə sosial kreditə uyğun deyilsə, standart kredit almaq üçün aşağıdakı şərtlər tətbiq olunur:

**I kurs, I semestr üçün:**

- Tələbənin qəbul imtahanı balı Fondun minimum həddini keçməlidir:
  - Bakalavr səviyyəsində: 250–700 bal;

    - Magistr səviyyəsində: 50–100 bal;
    - Sub-bakalavr səviyyəsində: 110–300 bal.
- İllik təhsil haqqının ən azı 20%-i ödənilməlidir.

**Daha sonrakı semestrlər üçün:**

- Kümülatif GPA (CGPA) 71 və ya yuxarı olmalıdır;
- Yenə illik təhsil haqqının minimum 20%-i ödənməlidir.

TTK-lə maraqlanan tələbələr ilkin məlumat və sənədləri aşağıdakı resursdan əldə edə bilərlər:
*"Education Student Loan Fund" qaydaları və Kredit kalkulyatoru*
odu.edu+1dcpcsb.org+1ada.edu.azblogs.worldbank.org+2aesma.edu.az+2gcu.edu+2.

### 13. Yay Məktəbi ilə bağlı tələblər

Yay Məktəbi akademik göstəricilərdə geri qalan, dərsdə iştirakında çətinliklər yaşayan və ya müəyyən kurslardan akademik çatışmazlıqları olan tələbələr üçün nəzərdə tutulub.

- Yay semestri nəzəri dərslər və imtahanlar daxil olmaqla 6 həftə davam edir, imtahan dövrü isə ən çox 1 həftə götürür .
- Yay semestrində tələbə maksimum 10 kredit götürə bilər .
- Bu proqram tələbələrə çatışmazlıqları aradan qaldırmaq və akademik vəziyyətlərini yaxşılaşdırmaq imkanı verir.

## 11. Tələbə Həyatı

## – Tələbə Təşkilatları

### Tələbə Həmkarlar İttifaqı (Tələbə Həmkarlar İttifaqı Komitəsi)

Azərbaycan Tibb Universitetində fəaliyyət göstərən Tələbə Həmkarlar İttifaqı komitəsi tələbələrin istirahətini məhsuldar təşkil etməklə yanaşı, istedadlı tələbələrə öz bacarıqlarını nümayiş etdirmək imkanı verən müxtəlif klublar idarə edir:

- **Teatr Klubu**: aktyorluq, ssenari yazımı, rejissorluq, səhnə işləri, qrim, dekor və montaj kimi bütün aspektlər tələbələr tərəfindən idarə olunur.
- **İncəsənət Klubu**: vizual incəsənət sərgiləri və müsabiqələri təşkil edir.
- **Kitab Klubu**: dörd dildə (təxminən 300 başlıq və 30 dövri nəşr) çoxdilli kitabxanaya malikdir.
- **Debat Klubu**: nitq bacarıqlarının inkişafı üçün seminarlar və universitet daxili və xarici debat turnirləri keçirir.
- **Şahmat Klubu**: həftəlik məşqlər və daxili həm də institutlararası yarışlar təşkil edir.

- **“Nə? Harada? Nə zaman?” İntelektual Klubu**: tələbələrin dünya görüşünü genişləndirir.
- **Danışıq Klubu**: dil praktikasına və dialoq bacarıqlarının inkişafa yardım edir.
- Bundan əlavə, **Hilal Yardım Klubu**, **Flashmob Klubu**, **Yaradıcı Klubu**, **VOIS Klubu** kimi fəaliyyət istiqamətləri də mövcuddur.

Bu quruluş ATU Tələbə Həmkarlar İttifaqı komitəsinin universitetin akademik qərarvermə orqanlarında olduqca nüfuzlu olduğunu əks etdirir.

---

**Tələbə Gənclər Təşkilatı**

Tələbə Gənclər Təşkilatı ali təhsilin inkişafına dəstək göstərmək, tələbə hüquqlarını təmsil etmək və onların mədəni, sosial, iqtisadi fəaliyyətini gücləndirmək məqsədilə fəaliyyət göstərir. Təşkilat mütəmadi olaraq aşağıdakıları təşkil edir:

- Seminarlər, konfranslar və təlim sessiyaları
- Milli və beynəlxalq yay düşərgələri
- Tələbə mübadilə proqramları, akademik olimpiadalar və incəsənət yarışmaları.

---

**Tələbə Elmi Cəmiyyəti**

Elmi fəaliyyətlə məşğul olan tələbələr üçün təşkil olunmuş bir ictimai qurumdur . Tələbələr, müəllimlər və tədqiqatçılar bir araya gələrək akademik layihələr, elmi seminarlar, konfranslar, diskussiya klubları və digər tədbirlər həyata keçirirlər.

---

**Sağlamlıq və Rifah Resursları**

- **TƏBİB — Tədris, İdman və Sağlamlıq Mərkəzi**: tələbələr üçün yüksək səviyyəli fiziki hazırlıq, idman və sağlamlıq xidmətləri təqdim edir.
- **Psixoloji Yardım Mərkəzi**: fərdi, sosial və akademik çətinliklərlə qarşılaşan müəllim, inzibati heyət və tələbələr üçün könüllü əsasla psixoloji dəstək göstərir .

---

Bu təşkilatlar və xidmətlər ATU-nun tələbələrin akademik, peşəkar, sağlamlıq və sosial inkişafına inteqrativ yanaşmasını və geniş idarəetmə strukturunun dəstəyini nümayiş etdirir.